Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 23 ” aprel tarixli
131 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Mülki hava gəmilərinə sertifikatların verilməsi, növ dizaynında dəyişiklik və ya onların təmiri, onların uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə tələblərin müəyyən olunması**

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 23.3-cü, 23.4-cü və 23.6-cı maddələrinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydaların müddəaları mülki pilotsuz uçuş aparatları istisna olmaqla növ sertifikatına malik olan və mülki aviasiyanın məqsədləri üçün istismar olunan bütün hava gəmilərinə şamil edilir.

1.3. Bu Qaydalarla tənzimlənməyən məsələlər Qanuna, “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya (bundan sonra – Konvensiya) və Konvensiyaya 8 nömrəli Əlavə - “Hava gəmisinin uçuşa yararlılığı” (bundan sonra – Konvensiyaya 8 nömrəli Əlavə) və Konvensiyaya 16 nömrəli Əlavə - “Ətraf mühitin mühafizəsi” (bundan sonra – Konvensiyaya 16 nömrəli Əlavə) ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, o cümlədən “Doc 9760, uçuşa yararlılıq üzrə Təlimat”a uyğun olaraq həyata keçirilir.

1.4. Bu Qaydaların tələblərinin yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – Agentlik) tərəfindən həyata keçirilir.

1.5. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.5.1. **ixrac üçün uçuşa yararlılıq sertifikatı** - uçuş məqsədləri üçün etibarlı olmayan, hava gəmisinin uçuşa yararlılıq vəziyyətinin qənaətbəxş qiymətləndirilməsinin təsdiqini ixrac edən dövlət tərəfindən təmin edən sənəd;

1.5.2. **modifikasiya** – hava gəmisinin, mühərrikin və ya pərin növ dizaynında dəyişiklik;

1.5.3. **növ sertifikatı** – Beynəlxalq Mülki Aviasiya Təşkilatının üzv dövləti tərəfindən hava gəmisinin, mühərrikin və ya pərin dizaynını müəyyən etmək, habelə bu dizaynın aidiyyəti uçuşa yararlılıq standartlarına uyğunluğunu təsdiq etmək üçün verilən sənəd;

1.5.4. **növ sertifikatlaşdırmanın əsası** – növ dizaynının və növ dizaynında dəyişikliyin təsdiq edilməsi üçün əsas qismində götürülən dizayn dövlətinin müəyyən etdiyi aidiyyəti uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə dizayn standartları. Dizayn dövlətinin müəyyən etdiyi hallarda növ sertifikatlaşdırmanın əsası əlavə olaraq

uçuşa yararlılığın xüsusi şərtlərini, ekvivalent təhlükəsizlik səviyyəsinin nəticələrini və (və ya) istisnaları özündə ehtiva edə bilər;

1.5.5. **təmir** – zədələnmiş və ya aşınmaya məruz qalmış hava gəmisinin və ya onun komponentinin aidiyyəti uçuşa yararlılıq tələblərinə uyğun olaraq uçuşa yararlı vəziyyətə qaytarılması.

1.6. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Qanunla, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə və Konvensiyaya 8 və 16 nömrəli əlavələrlə müəyyənləşdirilmiş mənaları ifadə edir.

## 2. Növ sertifikatının tanınması

2.1. Növ sertifikatı Agentlik tərəfindən aşağıdakı hallarda tanınır:

2.1.1. növ sertifikatı aidiyyəti üzrə Braziliya Federal Respublikasının mülki aviasiya sahəsində səlahiyyətli orqanı (ANAC), Avropa Komissiyasının mülki aviasiya sahəsində səlahiyyətli orqanı (EASA), Amerika Birləşmiş Ştatlarının mülki aviasiya sahəsində səlahiyyətli orqanı (FAA), Türkiyə Respublikasının mülki aviasiya sahəsində səlahiyyətli orqanı (SHGM), Kanadanın mülki aviasiya sahəsində səlahiyyətli orqanı (TCCA) və ya Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının mülki aviasiya sahəsində səlahiyyətli orqanı (UK CAA) tərəfindən verildikdə;

2.1.2. növ sertifikatı qüvvədə olduqda;

2.1.3. hava gəmisinin növü aidiyyəti uçuşa yararlılıq dizayn standartları daxil olmaqla növ sertifikatlaşdırmanın əsasına uyğun olduqda;

2.1.4. hava gəmisinin növü Konvensiyaya 16 nömrəli Əlavə ilə müəyyən edilmiş ekoloji tələblərə və səs-küy çirklənmələri normalarına uyğun olduqda;

2.1.5. hava gəmisinin növünün heç bir xüsusiyyəti və ya xarakteristikası onun təyinatı üzrə istifadəsi üçün təhlükə törətmədikdə;

2.1.6. Agentliyin uçuşa yararlılıq və uçuş əməliyyatları üzrə müfəttişlərinin hava gəmisinin növü üzrə müvafiq təlimlərlə təmin edildikdə;

2.1.7. növ sertifikatının sahibi bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulmuş məlumatları və sənədləri, habelə aidiyyəti sənədlərə olunan müvafiq dəyişiklikləri Agentliyə təqdim etdikdə.

2.2. Agentlik hava gəmisinin növünə münasibətdə dizayn dövlətinin mülki aviasiya sahəsində səlahiyyətli orqanı tərəfindən verilmiş növ sertifikatını tanıyır.

2.3. Növ sertifikatının tanınması üçün növ sertifikatının sahibi (bundan sonra – ərizəçi) aidiyyəti üzrə aşağıdakı məlumatları və sənədləri ərizə ilə birlikdə şəxsən və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron qaydada Agentliyə təqdim etməlidir:

2.3.1. ərizəçinin adı, ünvanı, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı, elektron ünvanı və əlaqə nömrəsi;

2.3.2. növ sertifikatının tanınması üçün müraciətin məqsədi;

2.3.3. daha əvvəl Agentlik tərəfindən tanınmamış hava gəmisinin mülkiyyətçisinin və ya istismarçısının növ sertifikatının Agentlik tərəfindən tanınması üçün müraciəti;

2.3.4. hava gəmisinin, mühərrikin və pərin növ sertifikatları, habelə bu sertifikatların məlumat vərəqələri;

2.3.5. aidiyyəti uçuşa yararlılıq dizayn standartları daxil olmaqla növ sertifikatlaşdırmasının əsası haqqında detallı məlumat;

2.3.6. texniki xidmət üzrə nəzarət şurasının hesabatı, texniki xidmətin planlaşdırılması üzrə təlimat, texniki xidmət təlimatı və illüstrasiyalı hissələr kataloqu daxil olmaqla hava gəmisinin, mühərrikin və pərin uçuşa yararlılığının saxlanılması üzrə təlimatları;

2.3.7. hava gəmisinin, mühərrikin və pərin servis bülletenləri və servis məktubları daxil olmaqla servis məlumatları, habelə uçuşa yararlılıq direktivləri;

2.3.8. hava gəmisinin uçuş təlimatı, çəki və balans təlimatı, əsas minimum avadanlıq siyahısı və konfiqurasiyadan yayınma siyahısı;

2.3.9. Agentliyin müfəttişləri üçün hava gəmisinin növü üzrə təlimlərin təşkili məqsədilə təklif olunan cədvəl;

2.3.10. bu Qaydaların 2.3.6-2.3.8-ci yarımbəndlərində nəzərdə tutulmuş sənədlərdə edilən dəyişikliklərin Agentliyə göndərilmə forması haqqında məlumat;

2.3.11. hava gəmisinin növünün məruz qaldığı aviasiya hadisələrinin və ciddi aviasiya insidentlərinin siyahısı;

2.3.12. hava gəmisinin növünə münasibətdə dövlət nəzarətini həyata keçirmək üçün Agentlik tərəfindən istənilən digər məlumatlar və sənədlər;

2.3.13. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

2.4. Bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə çatışmazlıqlar, o cümlədən imtina üçün əsaslar olmadıqda, ərizə və ona əlavə olunan sənədlərə Agentlik tərəfindən qeydiyyata alındığı tarixdən 30 (otuz) gün müddətində baxılaraq növ sertifikatının tanınması haqqında qərar qəbul edilir.

2.5. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, Agentlik tərəfindən bu barədə ərizəçiyə 3 (üç) gündən gec olmayaraq məlumat verilir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 15 (on beş) gün müddətində aradan qaldırmalıdır. Bu zaman növ sertifikatının tanınması ilə bağlı ərizəyə baxılması üzrə müddətin axımı dayandırılır və dayandırılmış müddət bu Qaydaların 2.4-cü bəndində nəzərdə tutulmuş müddətə daxil edilmir. Ərizəçi təqdim etdiyi sənədlərdəki çatışmazlıqları aradan qaldırdıqdan sonra müddətin axımı bərpa olunaraq müraciətə baxılır və tanınma və ya tanınmadan imtina barədə müvafiq qərar qəbul edilir. Ərizəçi çatışmazlıqları 15 (on beş) gün müddətində aradan qaldırmadıqda, habelə “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və bu barədə 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

2.6. Növ sertifikatının tanınması və ya tanınmasından imtina barədə müvafiq qərar qəbul edildikdə, ərizəçiyə Agentlik tərəfindən bu barədə təsdiq məktubu təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Bu Qaydaların 2.1-ci bəndində nəzərdə tutulmuş şərtlərin təmin olunması davam etdikdə növ sertifikatının tanınması qüvvədə qalır.

## 3. Uçuşa yararlılıq sertifikatı

3.1. Uçuşa yararlılıq sertifikatı tanınmış növ sertifikatının əsaslandığı uçuşa yararlılıq standartları əsasında verilir.

3.2. Uçuşa yararlılıq sertifikatı Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hava gəmilərinə verilir.

3.3. Uçuşa yararlılıq sertifikatının verilməsi üçün hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilat (bundan sonra – təşkilat) aidiyyəti üzrə aşağıdakı məlumatları və sənədləri ərizə ilə birlikdə şəxsən və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla Agentliyə təqdim etməlidir:

3.3.1. ərizəçinin adı, ünvanı, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı, elektron ünvanı və əlaqə nömrəsi;

3.3.2. hava gəmisindən istifadə məqsədi;

3.3.3. hava gəmisinin təsnifatı, təyinatı, istehsalçısı, növü, modeli, seriya nömrəsi, qeydiyyat nişanı, konfiqurasiyası, maksimal qalxma kütləsi və istehsal tarixi;

3.3.4. mühərriklərinin növü, modeli, sayı və seriya nömrələri;

3.3.5. pərlərin növü, modeli, sayı və seriya nömrələri;

3.3.6. köməkçi güc qurğusunun növü, modeli, sayı və seriya nömrələri;

3.3.7. hava gəmisinin ən son uçuşa yararlılıq sertifikatı;

3.3.8. hava gəmisinin komponentlərinin siyahısı;

3.3.9. hava gəmisində yerinə yetirilmiş modifikasiyaların və təmirlərin siyahısı, habelə bu modifikasiyaların və təmirlərin bu Qaydaların tələblərinə uyğunluğunu təsdiq edən sübutedici sənədlər;

3.3.10. bütün aidiyyəti servis bülletenlərin və uçuşa yararlılıq direktivlərinin siyahısı, habelə hava gəmisinin və onun komponentlərinin onlara uyğunluğunun cari vəziyyəti;

3.3.11. istismar müddəti məhdud və nəzarət edilən komponentlərin ümumi istismar müddətinin cari vəziyyəti;

3.3.12. hava gəmisinin ilkin istismara buraxılma tarixi, eləcə də hava gəmisinin, mühərriklərin və pərlərin ümumi istismar müddəti (uçuş saatları, qalxma-enmə dövrü və s.);

3.3.13. hava gəmisinin təsdiq edilmiş texniki xidmət proqramına uyğunluğunun cari vəziyyəti, həmçinin təxirə salınmış texniki xidmət tapşırıqlarının və təxirə salınmış nasazlıqların aradan qaldırılmasının cari vəziyyəti;

3.3.14. hava gəmisinin uçuş təlimatı və onun əlavələri;

3.3.15. hava gəmisinin son kütlə və balans hesabatı;

3.3.16. hava gəmisinin texniki xidmətinə aid detallı sənədləri;

3.3.17. hava gəmisinin, mühərriklərin, pərlərin və köməkçi güc qurğusunun texniki jurnalları;

3.3.18. hava gəmisinin fiziki inspeksiyası üçün təklif olunan tarix və yer;

3.3.19. hava gəmisinin uçuşa yararlılığını müəyyən etmək üçün Agentlik tərəfindən istənilən digər məlumatlar və sənədlər;

3.3.20. hava gəmisinin mülkiyyətçisi, istismarçısı, təşkilat və texniki xidmət təşkilatı (təşkilatları) barədə məlumatlar, habelə həmin şəxslər arasında uçuşa yararlılığın saxlanılması üzrə tələblərə uyğun bağlanılmış müqavilələr;

3.3.21. dizayn dövlətinin mülki aviasiya sahəsində səlahiyyətli orqanı tərəfindən verilmiş ixrac üçün uçuşa yararlılıq sertifikatı və ya ekvivalent sənəd;

3.3.22. hava gəmisi daha əvvəl digər dövlətlərdə qeydiyyatda olduqda ən son qeydiyyatda olduğu dövlətin mülki aviasiya sahəsində səlahiyyətli orqanı tərəfindən son 60 (altmış) gün ərzində verilmiş ixrac üçün uçuşa yararlılıq sertifikatı və ya ekvivalent sənəd;

3.3.23. hava gəmisinin plakatlarının və işarələrinin siyahısı;

3.3.24. kompas yoxlanışın yerinə yetirildiyinin təsdiqi;

3.3.25. hava gəmisinin milli mənsubiyyət və qeydiyyat nişanları ilə qanunvericiliyin tələblərinə uyğun olaraq nişanlandığının təsdiqi;

3.3.26. hava gəmisi daha əvvəl digər dövlətlərdə qeydiyyatda olduqda əvvəlki milli mənsubiyyət və qeydiyyat nişanları;

3.3.27. hava gəmisinin Azərbaycan Respublikasında dövlət qeydiyyatına alındığı və ya alınması barədə müraciət edildiyini təsdiq edən sənəd;

3.3.28. təsdiq edilmiş texniki xidmət proqramı və əvvəlki aidiyyəti texniki xidmət proqramı arasındakı fərq, habelə bu fərqin aradan qaldırılması üçün yerinə yetirilmiş texniki xidmətin təsdiqi;

3.3.29. təsdiq edilmiş texniki xidmət proqramı və minimum avadanlıq siyahısı;

3.3.30. test uçuşlarının nəticələri;

3.3.31. radioavadanlıq sertifikatı;

3.3.32. səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat;

3.3.33. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

3.4. Bu Qaydaların 3.3-cü bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə çatışmazlıqlar, o cümlədən imtina üçün əsaslar olmadıqda ərizə və ona əlavə olunan sənədlərə Agentlik tərəfindən qeydiyyata alındığı tarixdən 45 (qırx beş) gün müddətində baxılaraq hava gəmisinin uçuşa yararlılığını yoxlamaq məqsədilə müfəttiş yoxlaması təşkil edilir.

3.5. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, Agentlik tərəfindən bu barədə ərizəçiyə 3 (üç) gündən gec olmayaraq məlumat verilir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 15 (on beş) gün müddətində aradan qaldırmalıdır. Bu zaman uçuşa yararlılıq sertifikatının verilməsi ilə bağlı ərizəyə baxılması üzrə müddətin axımı dayandırılır və dayandırılmış müddət bu Qaydaların 3.4-cü bəndində nəzərdə tutulmuş müddətə daxil edilmir. Ərizəçi təqdim etdiyi sənədlərdəki çatışmazlıqları aradan qaldırdıqdan sonra müddətin axımı bərpa olunaraq müraciətə baxılır. Ərizəçi çatışmazlıqları 15 (on beş) gün müddətində aradan qaldırmadıqda, habelə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

3.6. Bu Qaydaların 3.4-cü bəndində nəzərdə tutulmuş müfəttiş yoxlamasının nəticəsi olaraq Agentlik yoxlama bitdiyi gündən 10 (on) gündən gec olmayaraq

ərizəçiyə müfəttiş yoxlaması zamanı aşkar edilmiş bütün nöqsanları özündə ehtiva edən müfəttiş yoxlamasının nəticələrinə dair hesabatı təqdim edir.

3.7. Ərizəçi hesabatda qeyd olunanlara əsasən 10 (on) gündən gec olmayan müddətdə hər bir nöqsan üzrə əsas səbəbi və nöqsanın aradan qaldırılması üçün düzəldici tədbirlər planını (bundan sonra – plan) tələb olunan icra müddəti göstərilməklə Agentliyə təqdim etməlidir. Ərizəçi həmin planı vaxtında təqdim etmədikdə ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

3.8. Ərizəçi planı təqdim etdikdən sonra bu plan 10 (on) gün müddətində Agentlik tərəfindən qiymətləndirilir və bu qiymətləndirmənin əsaslandırılmış nəticəsi ərizəçiyə rəsmi və ya elektron qaydada bildirilir. Təqdim edilmiş plan qəbul olunmadıqda ərizəçi Agentliyin rəylərinə əsasən 5 (beş) gündən gec olmayan müddətdə planda düzəliş etməli və yenilənmiş planı Agentliyə təqdim etməlidir. Ərizəçi bu planı vaxtında təkrar təqdim etmədikdə ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

3.9. Ərizəçi Agentlik tərəfindən təsdiq edilmiş planını Agentliklə razılaşdırdığı müddətdə (lakin hər bir halda 3 (üç) ay müddətindən gec olmayaraq) icra etməli və bu barədə Agentliyə sübutedici məlumatları və sənədləri təqdim etməlidir. Bu məlumatlar və sənədlər təqdim edildikdən sonra müraciətə (10) on gün müddətində təkrar baxılır və qəbul və ya imtina edilməsi barədə qərar qəbul edilir. Ərizəçi planı vaxtında icra etmədikdə ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

3.10. Ərizəçinin müraciəti bu Qaydaların 3.2-ci və 3.3-cü bəndlərinin tələblərinə uyğun olduqda, habelə bu Qaydaların 3.4-cü bəndinə uyğun müfəttiş yoxlaması zamanı nöqsan aşkar edilmədikdə və ya bütün nöqsanlar bu Qaydaların tələblərinə uyğun olaraq aradan qaldırıldıqda Agentlik tərəfindən ərizəçiyə 1 (bir) il müddətinə və ya növ dizaynı ilə hava gəmisinin müəyyən edilmiş son istismar müddətinə (hansı daha tez baş verdikdə) Agentlik tərəfindən bu Qaydaların 1 nömrəli Əlavəsində göstərilən uçuşa yararlılıq sertifikatı verilir.

3.11. Uçuşa yararlılıq sertifikatını aldıqdan sonra bu sertifikatda göstərilən məlumatlarda hər hansı dəyişiklik baş verdikdə sertifikatın sahibi həmin əsasların yarandığı gündən 5 (beş) gündən gec olmayaraq sertifikatın yenidən rəsmiləşdirilməsi üçün Agentliyə müraciət edilməlidir. Müraciətə sertifikatın yenidən rəsmiləşdirilməsi əsaslarını təsdiq edən sənədlər əlavə edilir. Müraciətə daxil olduğu gündən 10 (on) gün müddətində Agentlik tərəfindən baxılır, müvafiq düzəlişlər edilərək yenidən rəsmiləşdirilmiş sertifikat ərizəçiyə təqdim edilir və əvvəlki sertifikat ərizəçi tərəfindən Agentliyə qaytarılır.

3.12. Uçuşa yararlılıq sertifikatının üçüncü şəxslərə ötürülməsinə yol verilmir.

3.13. Uçuşa yararlılıq sertifikatı yararsız vəziyyətə düşdükdə və ya itirildikdə təşkilat həmin sertifikatın dublikatının verilməsi üçün Agentliyə ərizə ilə müraciət edir. Agentlik ərizənin daxil olduğu tarixdən 5 (beş) gün müddətində uçuşa yararlılıq sertifikatının eyni hüquqi qüvvəyə malik dublikatını hazırlayaraq ərizəçiyə təqdim edir. Uçuşa yararlılıq sertifikatının dublikatının yuxarı sağ tərəfində Azərbaycan və ingilis dillərində “Dublikat” sözü yazılır və onun verilmə tarixi qeyd edilir.

3.14. Uçuşa yararlılıq sertifikatının etibarlılıq müddətinin uzadılması üçün təşkilat aidiyyəti üzrə bu Qaydaların 3.3.1-3.3.19-cu və 3.3.33-cü yarımbəndlərində nəzərdə tutulmuş aidiyyəti məlumatları və sənədləri Agentliyə təqdim etməlidir. Uçuşa yararlılıq sertifikatının etibarlılıq müddətinin uzadılması bu Qaydaların 3.4-3.10-cu bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

3.15. Ərizəçi uçuşa yararlılıq sertifikatının etibarlılıq müddətinin uzadılması üçün sertifikatın qüvvədəndüşmə tarixindən 3 (üç) ay əvvəl müraciət etdikdə, habelə bu Qaydaların 3.4-3.10-cu bəndlərində nəzərdə tutulmuş proses 3 (üç) ay ərzində tamamlandıqda yeni sertifikatın etibarlılıq müddəti əvvəlki sertifikatın qüvvədəndüşmə tarixindən 1 (bir) il müddətinə və ya növ dizaynı ilə hava gəmisinin müəyyən edilmiş son istismar müddətinə (hansı daha tez baş verərsə) uzadılır. Digər hallarda yeni uçuşa yararlılıq sertifikatının qüvvədəndüşmə tarixi bu sertifikatın rəsmiləşdirildiyi tarixdən hesablanır.

3.16. Aşağıdakı hallarda uçuşa yararlılıq sertifikatı qüvvədən düşmüş hesab edilir.

3.16.1. uçuşa yararlılıq sertifikatının etibarlılıq müddəti bitdikdə;

3.16.2. Agentlik tərəfindən uçuşa yararlılıq sertifikatı ləğv edildikdə;

3.16.3. hava gəmisi uçuşa yararsız vəziyyətə düşdükdə;

3.16.4. təşkilat ləğv edildikdə;

3.16.5. hava gəmisi Azərbaycan Respublikasının dövlət qeydiyyatından çıxarıldıqda;

3.16.6. aidiyyəti növ sertifikatı və onun tanınması ləğv edildikdə;

3.16.7. hava gəmisi müvafiq növ dizaynına uyğun olmadıqda;

3.16.8. hava gəmisi məhdudiyyətlər çərçivəsində istismar olunmadıqda və belə istismardan sonra lazımi tədbirlər görülmədikdə;

3.16.9. hava gəmisi uçuşa yararlılıq tələblərinə uyğun olmadıqda;

3.16.10. uçuşa yararlılıq sertifikatında göstərilən məlumatlar dəyişdikdə və yenisi ilə əvəz edildikdə.

3.17. Hava gəmisinin qüvvədən düşmüş uçuşa yararlılıq sertifikatı ilə bu Qaydaların tələblərinə uyğun verilmiş xüsusi uçuş icazəsi əsasında istismarına yol verilir.

3.18. Uçuşa yararlılıq sertifikatı hava gəmisinin bortunda saxlanılmalıdır.

3.19. Uçuşa yararlılıq sertifikatı Agentlik tərəfindən ləğv edildikdə bu sertifikatın əsli 3 (üç) gün ərzində Agentliyə qaytarılmalıdır. Bu Qaydaların 3.16.3-3.16.10-cu yarımbəndlərində nəzərdə tutulmuş hallar, habelə təşkilatın bu barədə müraciəti uçuşa yararlılıq sertifikatının ləğv olunması üçün əsas hesab edilir.

## 4. İxrac üçün uçuşa yararlılıq sertifikatı

4.1. İxrac üçün uçuşa yararlılıq sertifikatı Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış və daha əvvəl bu Qaydaların tələblərinə uyğun olaraq uçuşa yararlılıq sertifikatı verilmiş hava gəmilərinə verilir. İxrac üçün uçuşa yararlılıq sertifikatı hava gəmisinin istismarı üçün əsas hesab edilmir.

4.2. İxrac üçün uçuşa yararlılıq sertifikatının verilməsi üçün təşkilat aidiyyəti üzrə aşağıdakı məlumatları və sənədləri müraciət məktubu ilə birlikdə Agentliyə təqdim etməlidir:

4.2.1. ərizəçinin adı, ünvanı, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı, elektron ünvanı və əlaqə nömrəsi;

4.2.2. hava gəmisini idxal edəcək dövlət;

4.2.3. hava gəmisini idxal edəcək dövlətin mülki aviasiya sahəsində səlahiyyətli orqanı tərəfindən ixrac üçün uçuşa yararlılıq sertifikatının tələb olunduğunun təsdiqi;

4.2.4. hava gəmisini idxal edəcək dövlətin mülki aviasiyada səlahiyyətli orqanının ixrac üçün uçuşa yararlılıq sertifikatına münasibətdə xüsusi tələbləri, habelə hava gəmisinin bu tələblərə uyğunluğu barəsində məlumat;

4.2.5 hava gəmisinin Azərbaycan Respublikasının və idxal edən dövlətin uyğun olmadığı aidiyyəti uçuşa yararlılıq tələblərinin siyahısı və bu uyğunsuzluğun təsviri, habelə idxal edəcək dövlətin mülki aviasiya sahəsində səlahiyyətli orqanının bu uyğunsuzluğu qəbul etdiyinin təsdiqi;

4.2.6. bu Qaydaların 3.3.2-3.3.19-cu yarımbəndlərində nəzərdə tutulmuş müvafiq məlumatlar və sənədlər;

4.2.7. Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənəd.

4.3. Bu Qaydaların 4.2-ci bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə çatışmazlıqlar, o cümlədən imtina üçün əsaslar olmadıqda ərizə və ona əlavə olunan sənədlərə Agentlik tərəfindən qeydiyyata alındığı tarixdən 45 (qırx beş) gün müddətində baxılaraq hava gəmisinin uçuşa yararlılığını yoxlamaq məqsədilə müfəttiş yoxlaması təşkil edilir.

4.4. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, Agentlik tərəfindən bu barədə ərizəçiyə 5 (beş) gündən gec olmayaraq məlumat verilir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 15 (on beş) gün müddətində aradan qaldırmalıdır. Bu zaman ixrac üçün uçuşa yararlılıq sertifikatının verilməsi ilə bağlı ərizəyə baxılması üzrə müddətin axımı dayandırılır və dayandırılmış müddət bu Qaydaların 4.3-cü bəndində nəzərdə tutulmuş müddətə daxil edilmir. Ərizəçi təqdim etdiyi sənədlərdəki çatışmazlıqları aradan qaldırdıqdan sonra müddətin axımı bərpa olunaraq müraciətə baxılır. Ərizəçi çatışmazlıqları 15 (on beş) gün müddətində aradan qaldırmadıqda, habelə “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

4.5. Bu Qaydaların 4.3-cü bəndində nəzərdə tutulmuş müfəttiş yoxlamasının nəticəsi olaraq Agentlik yoxlama bitdiyi gündən 10 (on) gündən gec olmayaraq ərizəçiyə müfəttiş yoxlaması zamanı aşkar edilmiş bütün nöqsanları özündə ehtiva edən hesabatı təqdim edir.

4.6. Bu Qaydaların 4.2.5-ci yarımbəndində nəzərdə tutulmuş uyğunsuzluqların əhatə dairəsindən kənar olan müfəttiş yoxlaması zamanı nöqsan aşkar edildikdə ərizəçi müfəttiş yoxlamasının nəticələrini özündə ehtiva edən hesabatı aldığı gündən 10 (on) gün müddətində hər bir nöqsan üzrə əsas səbəbi və nöqsanın aradan qaldırdılması üçün tələb olunan müddəti göstərməklə planı Agentliyə təqdim etməlidir.

Ərizəçi planı 10 (on) gün müddətində təqdim etmədikdə ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

4.7. Ərizəçi planı təqdim etdikdən sonra bu plan 10 (on) gün müddətində Agentlik tərəfindən qiymətləndirilir və bu qiymətləndirmənin əsaslandırılmış nəticəsi ərizəçiyə rəsmi və ya elektron qaydada bildirilir. Təqdim edilmiş plan qəbul olunmadıqda ərizəçi Agentliyin rəylərinə əsasən 5 (beş) gündən gec olmayan müddətdə planda düzəliş etməli və yenilənmiş planı Agentliyə təqdim etməlidir. Ərizəçi planı 5 (beş) gün müddətində təqdim etmədikdə ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

4.8. Ərizəçi Agentlik tərəfindən təsdiq edilmiş planı Agentliklə razılaşdırdığı müddətdə (hər bir halda 3 (üç) ay müddətindən gec olmayaraq) icra etməlidir və bu barədə Agentliyə sübutedici məlumatları və sənədləri təqdim etməlidir. Bu məlumatlar və sənədlər təqdim edildikdən sonra müraciətə (10) on gün ərzində təkrar baxılır və qəbul və ya imtina edilməsi barədə qərar qəbul edilir. Ərizəçi planı bu Qaydalar ilə müəyyənləşdirilmiş müddətdə icra etmədikdə ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

4.9. Ərizəçinin müraciəti bu Qaydaların 4.1-ci və 4.2-ci bəndlərinin tələblərinə uyğun olduqda, habelə müfəttiş yoxlaması zamanı heç bir nöqsan aşkar edilmədikdə və ya bütün nöqsanlar bu Qaydaların tələblərinə uyğun olaraq aradan qaldırıldıqda ərizəçiyə Agentlik tərəfindən bu Qaydaların 2 nömrəli Əlavəsində göstərilən ixrac üçün uçuşa yararlılıq sertifikatı verilir.

4.10. İxrac üçün uçuşa yararlılıq sertifikatı üçüncü şəxslərə ötürülə bilməz.

4.11. İxrac üçün uçuşa yararlılıq sertifikatı yararsız vəziyyətə düşdükdə və ya itirildikdə onun sahibi həmin sertifikatın dublikatının verilməsi üçün Agentliyə ərizə ilə müraciət edir. Agentlik ərizənin daxil olduğu tarixdən 5 (beş) gün müddətində ixrac üçün uçuşa yararlılıq sertifikatının eyni hüquqi qüvvəyə malik dublikatını hazırlayaraq ərizəçiyə təqdim edir. İxrac üçün uçuşa yararlılıq sertifikatının dublikatının yuxarı sağ tərəfində Azərbaycan və ingilis dillərində "Dublikat" sözü və verilmə tarixi qeyd edilməlidir.

## 5. Xüsusi uçuş icazəsi

5.1. Xüsusi uçuş icazəsi Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış və daha əvvəl bu Qaydaların tələblərinə uyğun olaraq uçuşa yararlılıq sertifikatı verilmiş hava gəmilərinə verilir.

5.2. Xüsusi uçuş icazəsi hava gəmisi uçuşu təhlükəsiz yerinə yetirmək vəziyyətində olduqda, lakin aidiyyəti uçuşa yararlılıq tələblərindən birinə və ya bir neçəsinə uyğun olmadıqda aşağıdakı uçuşların yerinə yetirilməsi üçün verilir:

5.2.1. texniki xidmətin yerinə yetiriləcəyi bazaya və ya saxlama məntəqəsinə uçuş;

5.2.2. texniki xidmətdən sonra və ya Agentliyin tələbi əsasında test uçuşu;

5.2.3. modifikasiyanın təsdiqi üçün test uçuşu;

5.2.4. hava gəmisinin idxalı və ya ixracı;

5.2.5. hava gəmisinin potensial təhlükə zonalarından evakuasiyası.

5.3. Xüsusi uçuş icazəsi hava gəmisinin müəyyən olunmuş uçuşa yararlılıq tələblərindən başqa digər qanunvericiliyin tələblərinin uyğun olmaması üçün əsas deyildir.

5.4. Təşkilat hava gəmisinin hər zaman qüvvədə olan uçuşa yararlılıq sertifikatının olmasını, habelə hava gəmisinin bütün aidiyyəti uçuşa yararlılıq tələblərinə uyğun olması üçün bütün zəruri tədbirləri həyata keçirməlidir. Xüsusi uçuş icazəsinə isə çox nadir hallarda, təşkilatdan asılı olmayan səbəblərdən (hava gəmilərinin təhvil verilməsi və ya ixracı və s.) müraciət edilməlidir.

5.5. Xüsusi uçuş icazəsi əsasında digər dövlətlərin hava məkanında istismar olunan hava gəmisi üçün həmin dövlətlərə bu barədə məlumat vermək və ehtiyac olduqda onlardan əlavə icazə almaq hava gəmisinin istismarçısının məsuliyyətindədir.

5.6. Xüsusi uçuş icazəsi kommersiya hava daşıması üçün istifadə olunmasına, habelə xüsusi uçuş icazəsi əsasında istismar olunan hava gəmisinin bortunda uçuşun təhlükəsiz həyata keçirilməsinə məsul şəxslər istisna olmaqla digər şəxslərin olmasına yol verilmir.

5.7. Xüsusi uçuş icazəsi əsasında istismar olunan hava gəmisinin istismarına həmin icazədə nəzərdə tutulmuş şərtlər və məhdudiyyətlər tam və düzgün şəkildə təmin olunduqda yol verilir.

5.8. Hava gəmisinin istismarçısı xüsusi uçuş icazəsi əsasında istismar olunan hava gəmisinin bortunda olan bütün şəxsləri xüsusi uçuş icazəsi, eləcə də bu icazə ilə bağlı şərtlər və məhdudiyyətlər barəsində məlumatlandırmalıdır.

5.9. Xüsusi uçuş icazəsinin verilməsi üçün təşkilat aidiyyəti üzrə aşağıdakı məlumatları və sənədləri müraciət məktubu ilə birlikdə Agentliyə təqdim etməlidir:

5.9.1. ərizəçinin adı, ünvanı, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı, elektron ünvanı və əlaqə nömrəsi;

5.9.2. hava gəmisinin təsnifatı, təyinatı, istehsalçısı, növü, modeli, seriya nömrəsi, qeydiyyat nişanı və konfiqurasiyası;

5.9.3. hava gəmisinin uyğun olmadığı uçuşa yararlılıq tələblərinə istinad, bu uyğunsuzluğun detallı səbəbi və təsviri;

5.9.4. xüsusi uçuş icazəsinin alınması üçün müraciətin səbəbi və məqsədi;

5.9.5. uçuşun detalları (tarix, marşrut və s.);

5.9.6. uçuş zamanı hava gəmisinin bortunda olacaq şəxslərin siyahısı;

5.9.7. xüsusi uçuş icazəsi üçün istənilən müddət;

5.9.8. hava gəmisinin uçuşa yararlılıq vəziyyəti;

5.9.9. hava gəmisinin uçuşa yararlılığını müəyyən etmək üçün Agentlik tərəfindən istənilən digər məlumatlar və sənədlər;

5.9.10. növ sertifikatının sahibinin rəyi;

5.9.11. hava gəmisi növ dizaynına uyğun olmadıqda, nəzərdə tutulan uçuş təsdiq edilmiş məhdudiyyətlərdən kənar olduqda, eləcə də hava gəmisi uçuşa yararlılıq məhdudiyyətlərinə, texniki xidmət üzrə sertifikasiya tələblərinə və ya uçuşa yararlılıq direktivinə uyğun olmadıqda dizayn dövlətinin mülki aviasiya sahəsində səlahiyyətli orqanı və ya bu orqan tərəfindən müvafiq səlahiyyət verilmiş təşkilat öz səlahiyyəti çərçivəsində təsdiq etdiyi uçuş şərtləri;

5.9.12. təklif olunan uçuş şərtləri;

5.9.13. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

5.10. Bu Qaydaların 5.9-cu bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə çatışmazlıqlar, o cümlədən imtina üçün əsaslar olmadıqda, ərizə və ona əlavə olunan sənədlərə Agentlik tərəfindən qeydiyyata alındığı tarixdən 15 (on beş) gün müddətində baxılaraq xüsusi uçuş icazəsinin verilməsi haqqında qərar qəbul edilir.

5.11. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, Agentlik tərəfindən bu barədə ərizəçiyə 10 (on) gündən gec olmayaraq məlumat verilir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 5 (beş) gün müddətində aradan qaldırmalıdır. Bu zaman xüsusi uçuş icazəsinin verilməsi ilə bağlı ərizəyə baxılması üzrə müddətin axımı dayandırılır və dayandırılmış müddət bu Qaydaların 5.10-cu bəndində nəzərdə tutulmuş müddətə daxil edilmir. Ərizəçi təqdim etdiyi sənədlərdəki çatışmazlıqları aradan qaldırdıqdan sonra müddətin axımı bərpa olunaraq müraciətə baxılır və xüsusi uçuş icazəsinin verilməsi və ya imtina edilməsi barədə qərar qəbul edilir. Ərizəçi çatışmazlıqları 5 (beş) gün müddətində aradan qaldırmadıqda, habelə “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

5.12. Xüsusi uçuş icazəsinin verilməsi haqqında qərar qəbul edildikdə, Agentlik tərəfindən ərizəçiyə bu Qaydaların 5.9.7-ci yarımbəndində nəzərdə tutulmuş müddətə (lakin 3 (üç) ay müddətindən çox olmayaraq) Agentlik tərəfindən bu Qaydaların 3 nömrəli Əlavəsində göstərilən xüsusi uçuş icazəsi verilir.

5.13. Xüsusi uçuş icazəsini aldıqdan sonra bu icazədə göstərilən məlumatlarda hər hansı bir dəyişiklik baş verdikdə təşkilat həmin əsasların yarandığı gündən 5 (beş) gündən gec olmayaraq xüsusi uçuş icazəsinin yenidən rəsmiləşdirilməsi üçün Agentliyə müraciət edilməlidir. Müraciətə xüsusi uçuş icazəsinin yenidən rəsmiləşdirilməsi əsaslarını təsdiq edən sənədlər əlavə edilir. Müraciətə daxil olduğu gündən 10 (on) gün müddətində Agentlik tərəfindən baxılır, müvafiq düzəlişlər edilərək yenidən rəsmiləşdirilmiş xüsusi uçuş icazəsi ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Əvvəl verilmiş icazə təşkilat tərəfindən Agentliyə qaytarılmalıdır.

5.14. Xüsusi uçuş icazəsi üçüncü şəxslərə ötürülə bilməz.

5.15. Xüsusi uçuş icazəsi yararsız vəziyyətə düşdükdə və ya itirildikdə təşkilat həmin icazənin dublikatının verilməsi üçün Agentliyə ərizə ilə müraciət edir. Agentlik ərizənin daxil olduğu tarixdən 5 (beş) gün müddətində xüsusi uçuş icazəsinin eyni hüquqi qüvvəyə malik dublikatını hazırlayaraq ərizəçiyə təqdim edir. Xüsusi uçuş icazəsinin dublikatının yuxarı sağ tərəfində Azərbaycan və ingilis dillərində “Dublikat” sözü və verilmə tarixi qeyd edilməlidir.

5.16. Xüsusi uçuş icazəsi aşağıdakı hallarda qüvvədən düşür:

5.16.1. xüsusi uçuş icazəsinin etibarlılıq müddəti bitdikdə;

5.16.2. təşkilat ləğv edildikdə;

5.16.3. Agentlik tərəfindən xüsusi uçuş icazəsi ləğv edildikdə;

5.16.4. hava gəmisi Azərbaycan Respublikasının dövlət qeydiyyatından çıxarıldıqda;

5.16.5. aidiyyəti növ sertifikatı və onun tanınması ləğv edildikdə;

5.16.6. xüsusi uçuş icazəsində göstərilən şərtlər və məhdudiyyətlər yerinə yetirilmədikdə;

5.16.7. xüsusi uçuş icazəsində göstərilən məlumatlar dəyişdikdə.

5.17. Xüsusi uçuş icazəsi hava gəmisinin bortunda saxlanılmalıdır.

5.18. Xüsusi uçuş icazəsi Agentlik tərəfindən ləğv edildikdə həmin icazənin əsli 3 (üç) gün ərzində Agentliyə qaytarılır. Bu Qaydaların 5.16.4-5.16.7-ci yarımbəndlərində nəzərdə tutulmuş hallar, habelə təşkilatın bu barədə müraciəti xüsusi uçuş icazəsinin ləğv olunması üçün əsas hesab edilir.

## 6. Modifikasiyalar və təmirlər

6.1. Hava gəmilərində modifikasiyalar və təmirlər aşağıdakı təşkilatlar və şəxslər tərəfindən təsdiq edilmiş müvafiq məlumatlar əsasında yerinə yetirilir:

6.1.1. FAA və ya EASA;

6.1.2. FAA və ya EASA tərəfindən müvafiq səlahiyyət verilmiş şəxs və ya təşkilat;

6.1.3. dizayn dövlətinin mülki aviasiya sahəsində səlahiyyətli orqanı;

6.1.4. dizayn dövlətinin mülki aviasiya sahəsində səlahiyyətli orqanı tərəfindən müvafiq səlahiyyət verilmiş şəxs və ya təşkilat.

## 7. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat

7.1. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış və Konvensiyaya 16 nömrəli Əlavənin səs-küy çirklənmələri normaları tətbiq olunduğu hava gəmilərinə verilir.

7.2. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatın verilməsi üçün təşkilat aidiyyəti üzrə aşağıdakı məlumatları və sənədləri müraciət məktubu ilə birlikdə Agentliyə təqdim etməlidir:

7.2.1. ərizəçinin adı, ünvanı, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı, elektron ünvanı və əlaqə nömrəsi;

7.2.2. hava gəmisinin təsnifatı, təyinatı, istehsalçısı, növü, modeli, seriya nömrəsi, qeydiyyat nişanı, konfiqurasiyası, maksimal qalxma kütləsi, maksimal enmə kütləsi və istehsal tarixi;

7.2.3. mühərriklərinin növü, modeli, sayı və seriya nömrələri;

7.2.4. pərlərin növü, modeli, sayı və seriya nömrələri;

7.2.5. hava gəmisinin uçuş təlimatı və onun əlavələri;

7.2.6. hava gəmisinin səs-küy çirklənmələri üzrə göstəriciləri;

7.2.7. aidiyyəti səs-küy çirklənmələri normalarına uyğunluğu təmin etmək məqsədilə hava gəmisində yerinə yetirilmiş modifikasiyaların siyahısı;

7.2.8. hava gəmisinə daha əvvəl verilmiş səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatları;

7.2.9. aidiyyəti növ sertifikatının məlumat vərəqəsi daxil olmaqla dizayn dövlətinin mülki aviasiya sahəsində səlahiyyətli orqanı tərəfindən hava gəmisinin Konvensiyaya 16 nömrəli Əlavənin səs-küy çirklənmələri normalarına uyğunluğu haqqında təsdiqi;

7.2.10. hava gəmisinin uyğun olduğu aidiyyəti Konvensiyaya 16 nömrəli Əlavənin səs-küy çirklənmələri normalarına istinad;

7.2.11. aidiyyəti səs-küy çirklənmələri normalarına uyğunluğu təmin etmək məqsədilə hava gəmisinin uçuş təlimatının aidiyyəti əlavələrinə istinad;

7.2.12. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

7.3. Bu Qaydaların 7.2-ci bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə çatışmazlıqlar, o cümlədən imtina üçün əsaslar olmadıqda, ərizə və ona əlavə olunan sənədlərə Agentlik tərəfindən qeydiyyata alındığı tarixdən 15 (on beş) gün müddətində baxılaraq səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatın verilməsi haqqında qərar qəbul edilir.

7.4. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, Agentlik tərəfindən bu barədə ərizəçiyə 3 (üç) gündən gec olmayaraq məlumat verilir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 5 (beş) gün müddətində aradan qaldırmalıdır. Bu zaman səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatın verilməsi ilə bağlı ərizəyə baxılması üzrə müddətin axımı dayandırılır və dayandırılmış müddət bu Qaydaların 7.3-cü bəndində nəzərdə tutulmuş müddətə daxil edilmir. Ərizəçi təqdim etdiyi sənədlərdəki çatışmazlıqları aradan qaldırdıqdan sonra müddətin axımı bərpa olunaraq müraciətə baxılır və sertifikatın verilməsi və ya imtina barədə qərar qəbul edilir. Ərizəçi çatışmazlıqları 5 (beş) gün müddətində aradan qaldırmadıqda, habelə “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

7.5. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatın verilməsi haqqında qərar qəbul edildikdə, ərizəçiyə Agentlik tərəfindən bu Qaydaların 4 nömrəli Əlavəsində göstərilən səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat verilir.

7.6. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatı aldıqdan sonra bu sertifikatda göstərilən məlumatlarda hər hansı bir dəyişiklik baş verdikdə təşkilat həmin əsasların yarandığı gündən 5 (beş) gündən gec olmayaraq səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatın yenidən rəsmiləşdirilməsi üçün Agentliyə müraciət edilməlidir. Müraciətə səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatın yenidən rəsmiləşdirilməsi əsaslarını təsdiq edən sənədlər əlavə edilir. Müraciətə daxil olduğu gündən 10 (on) gün müddətində Agentlik tərəfindən baxılır, müvafiq düzəlişlər edilərək yenidən rəsmiləşdirilmiş səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Əvvəlki sertifikat Agentliyə qaytarılır.

7.7. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat üçüncü şəxslərə ötürülə bilməz.

7.8. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat yararsız vəziyyətə düşdükdə və ya itirildikdə təşkilat həmin sertifikatın dublikatının verilməsi üçün Agentliyə ərizə ilə müraciət edir. Agentlik ərizənin daxil olduğu tarixdən 5 (beş) gün müddətində səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatın eyni hüquqi qüvvəyə malik dublikatını hazırlayaraq ərizəçiyə təqdim edir. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatın dublikatının yuxarı sağ tərəfində Azərbaycan və ingilis dillərində "Dublikat" sözü və verilmə tarixi qeyd edilməlidir.

7.9. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat aşağıdakı hallarda qüvvədən düşür:

7.9.1. təşkilat ləğv edildikdə;

7.9.2. Agentlik tərəfindən səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat ləğv edildikdə;

7.9.3. hava gəmisi Azərbaycan Respublikasının dövlət qeydiyyatından çıxarıldıqda;

7.9.4. aidiyyəti növ sertifikatı və onun tanınması ləğv edildikdə;

7.9.5. hava gəmisi müvafiq növ dizaynına uyğun olmadıqda;

7.9.6. hava gəmisi aidiyyəti Konvensiyaya 16 nömrəli Əlavənin səs-küy çirklənmələri normalarına uyğun olmadıqda;

7.9.7. səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatda göstərilən məlumatlar dəyişdikdə.

7.10. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat hava gəmisinin bortunda saxlanılmalıdır.

7.11. Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat Agentlik tərəfindən ləğv edildikdə bu sertifikatın əsli 3 (üç) gün ərzində Agentliyə qaytarılmalıdır. Bu Qaydaların 7.9.3-7.9.7-ci yarımbəndlərində nəzərdə tutulmuş hallar, habelə təşkilatın bu barədə müraciəti səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatın ləğv olunması üçün əsas hesab edilir.

## 8. Radioavadanlıq sertifikatı

8.1. Radioavadanlıq sertifikatı Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış və bortunda radioavadanlıq sertifikatı quraşdırılmış hava gəmilərinə verilir.

8.2. Radioavadanlıq sertifikatının verilməsi üçün təşkilat tərəfindən müraciət məktubu ilə birlikdə Agentliyə aşağıdakı məlumatlar və sənədlər təqdim edilir:

8.2.1. ərizəçinin adı, ünvanı, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı, elektron ünvanı və əlaqə nömrəsi;

8.2.2. hava gəmisinin təsnifatı, təyinatı, istehsalçısı, növü, modeli, seriya nömrəsi, qeydiyyat nişanı, konfiqurasiyası və istehsal tarixi;

8.2.3. hava gəmisinin radioavadanlıq siyahısı;

8.2.4. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi tərəfindən verilmiş 406MHS KOSPAS-SARSAT Qəza Radio Mayaklarının qeydiyyata alınması haqqında Təsdiqnamə;

8.2.5. hava gəmisinə daha əvvəl verilmiş radioavadanlıq sertifikatları;

8.2.6. hava gəmisinin radioavadanlığını müəyyən etmək üçün Agentlik tərəfindən istənilən digər məlumatları və sənədləri;

8.2.7. Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənəd.

8.3. Bu Qaydaların 8.2-ci bəndində nəzərdə tutulmuş məlumatlarda və sənədlərdə çatışmazlıqlar, o cümlədən imtina üçün əsaslar olmadıqda ərizə və ona əlavə olunan sənədlərə Agentlik tərəfindən qeydiyyata alındığı tarixdən 15 (on beş) gün müddətində baxılaraq radioavadanlıq sertifikatının verilməsi haqqında qərar qəbul edilir.

8.4. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, Agentlik tərəfindən bu barədə ərizəçiyə 3 (üç) gündən gec olmayaraq məlumat verilir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 5 (beş) gün müddətində aradan qaldırmalıdır. Bu zaman radioavadanlıq sertifikatının verilməsi ilə bağlı ərizəyə baxılması üzrə müddətin axımı dayandırılır və dayandırılmış müddət bu Qaydaların 8.3-cü bəndində nəzərdə tutulmuş müddətə daxil edilmir. Ərizəçi təqdim etdiyi sənədlərdəki çatışmazlıqları aradan qaldırdıqdan sonra müddətin axımı bərpa olunaraq müraciətə baxılır və sertifikatın verilməsi və ya imtina barədə qərar qəbul edilir. Ərizəçi çatışmazlıqları 5 (beş) gün ərzində aradan qaldırmadıqda, habelə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

8.5. Radioavadanlıq sertifikatının verilməsi haqqında qərar qəbul edildikdə, ərizəçiyə Agentlik tərəfindən bu Qaydaların 5 nömrəli Əlavəsində göstərilən radioavadanlıq sertifikatı verilir, habelə hava gəmisinin "Mode S" transponderlərinə 24 bitlik ünvan (kod) ayrılır.

8.6. Radioavadanlıq sertifikatını aldıqdan sonra bu sertifikatda göstərilən məlumatlarda hər hansı bir dəyişiklik baş verdikdə təşkilat həmin əsasların yarandığı gündən 5 (beş) gündən gec olmayaraq radioavadanlıq sertifikatının yenidən rəsmiləşdirilməsi üçün Agentliyə müraciət edilməlidir. Müraciətə radioavadanlıq sertifikatının yenidən rəsmiləşdirilməsi əsaslarını təsdiq edən sənədlər əlavə edilir. Müraciətə daxil olduğu gündən 10 (on) gün müddətində Agentlik tərəfindən baxılır, müvafiq düzəlişlər edilərək yenidən rəsmiləşdirilmiş radioavadanlıq sertifikatı ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Əvvəlki sertifikat Agentliyə qaytarılır.

8.7. Radioavadanlıq sertifikatı üçüncü şəxslərə ötürülə bilməz.

8.8. Radioavadanlıq sertifikatı yararsız vəziyyətə düşdükdə və ya itirildikdə təşkilat həmin sertifikatın dublikatının verilməsi üçün Agentliyə ərizə ilə müraciət edir. Agentlik ərizənin daxil olduğu tarixdən 5 (beş) gün müddətində radioavadanlıq sertifikatının eyni hüquqi qüvvəyə malik dublikatını hazırlayaraq ərizəçiyə təqdim edir. Radioavadanlıq sertifikatının dublikatının yuxarı sağ tərəfində Azərbaycan və ingilis dillərində "Dublikat" sözü və verilmə tarixi qeyd edilməlidir.

8.9. Radioavadanlıq sertifikatı aşağıdakı hallarda qüvvədən düşür:

8.9.1. təşkilat ləğv edildikdə;

8.9.2. Agentlik tərəfindən radioavadanlıq sertifikatı ləğv edildikdə;

8.9.3. hava gəmisi Azərbaycan Respublikasının dövlət qeydiyyatından çıxarıldıqda;

8.9.4. aidiyyəti növ sertifikatı və onun tanınması ləğv edildikdə;

8.9.5. hava gəmisi müvafiq növ dizaynına uyğun olmadıqda;

8.9.6. radioavadanlıq sertifikatında göstərilən məlumatlar dəyişdikdə.

8.10. Radioavadanlıq sertifikatı üçüncü şəxslərə ötürülə bilməz.

8.11. Radioavadanlıq sertifikatı hava gəmisinin bortunda saxlanılmalıdır.

8.12. Radioavadanlıq sertifikatı Agentlik tərəfindən ləğv edildikdə bu sertifikatın əsli 3 (üç) gün ərzində Agentliyə qaytarılmalıdır. Bu Qaydaların 8.9.3-8.9.6-cı yarımbəndlərində nəzərdə tutulmuş hallar, habelə təşkilatın bu barədə müraciəti radioavadanlıq sertifikatının ləğv olunması üçün əsas hesab edilir.

## 9. Hava gəmisi və onun komponentləri

9.1. Hava gəmilərinə və onların komponentlərinə aşağıdakı şərtlərə uyğun olan komponentlərin, standart hissələrin və materialların quraşdırılmasına yol verilir:

9.1.1. istismar üçün yararlı vəziyyətdə olduqda;

9.1.2. aidiyyəti texniki xidmət təlimatlarında qeyd olunduqda;

9.1.3. yeni komponentlər üçün – EASA, FAA və ya dizayn dövlətinin mülki aviasiya sahəsində səlahiyyətli orqanın müəyyən etdiyi qaydalara uyğun verilmiş müvafiq istismara buraxılış sənədinə malik olduqda;

9.1.4. istifadə edilmiş komponentlər üçün – Azərbaycan Respublikasının, habelə EASA, FAA və ya dizayn dövlətinin mülki aviasiya sahəsində səlahiyyətli orqanın müəyyən etdiyi qaydalara uyğun verilmiş müvafiq istismara buraxılış sənədinə malik olduqda;

9.1.5. standart hissələr üçün – aidiyyəti standarta istinadı özündə ehtiva edən uyğunluq təsdiqinə malik olduqda;

9.1.6. materiallar üçün – konkret materiala aydın şəkildə aid olan və müvafiq spesifikasiyaya uyğunluq, habelə istehsal və təchizatçı mənbəyi haqda məlumatları özündə ehtiva edən sənədə (sənədlərə) malik olduqda.

9.2. Hava gəmisi və onun komponentləri dizayn dövlətinin mülki aviasiya sahəsində səlahiyyətli orqanı müəyyən etdiyi qaydada identifikasiya olunmalıdır.

## 10. Sertifikatın hüquqi qüvvəsi məhdudlaşdırıldıqda və ya dayandırıldıqda hava gəmisinin mülkiyyətçisinin və ya istismarçısının öhdəlikləri

10.1. Hava gəmisinin mülkiyyətçisi və ya istismarçısı tərəfindən bu Qaydaların tələblərinə riayət edilmədiyi aşkar olunduqda Agentlik bu Qaydalarda nəzərdə tutulmuş sertifikatların və ya icazələrin hüquqi qüvvəsini həmin pozuntular Agentlik tərəfindən təyin edilmiş müddətdə aradan qaldırılanadək məhdudlaşdıra və ya dayandıra bilər. Sertifikatların və ya icazələrin qüvvəsinin məhdudlaşdırıldığı və ya dayandırıldığı müddətdə aşkar olunmuş pozuntular aradan qaldırılmadıqda müvafiq sertifikatlar ləğv edilir. Bu halda sertifikatın və ya icazənin sahibi tərəfindən özünün səlahiyyətlərindən istifadəyə yol verilmir.

10.2. Sertifikatların və ya icazələrin hüquqi qüvvəsi dayandırıldıqda və ya ləğv edildikdə sertifikatın sahibi onları 3 (üç) gün ərzində Agentliyə qaytarmalıdır.

## 12. Yekun müddəa

Bu Qaydalarda nəzərdə tutulmuş müvafiq ərizəyə əlavə edilməli olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadıqda onların təqdim olunması ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir. Həmin sənədlər kağız daşıyıcıda və ya elektron sənəd formasında təqdim edilir.

**“Mülki hava gəmilərinə sertifikatların verilməsi, növ dizaynında dəyişiklik və ya onların təmiri, onların uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə tələblərin müəyyən olunması Qaydaları”na**

**1 nömrəli əlavə**

## Uçuşa yararlılıq sertifikatı

<table>
<tr><td colspan="2"></td><td colspan="2">Azərbaycan Respublikası / Republic of Azerbaijan<br><br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi<br>Ministry of Digital Development and Transport<br><br>Dövlət Mülki Aviasiya Agentliyi /<br>State Civil Aviation Agency<br><br>Uçuşa Yararlılıq Sertifikatı / Certificate of Airworthiness</td><td colspan="2">Sənədin nömrəsi /<br>Document number</td></tr>
<tr><td colspan="2">1. Milli mənsubiyyət və qeydiyyat nişanları / Nationality and registration marks:<br>4K-_____</td><td colspan="2">2. İstehsalçı və hava gəmisinin təyinatı / Manufacturer and manufacturer’s designation of aircraft:</td><td colspan="2">3. Hava gəmisinin seriya nömrəsi / Aircraft serial number</td></tr>
<tr><td colspan="6">4. Kateqoriyalar / Categories:</td></tr>
<tr><td colspan="6">5. Bu uçuşa yararlılıq sertifikatı “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Kovensiyaya və “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yuxarıda qeyd olunan, eləcə də texniki xidməti və istismarı müvafiq istismar məhdudiyyətlərinə uyğun həyata keçirildikdə uçuşa yararlı hesab edilən hava gəmisinə verilib. / This certificate of airworthiness is issued pursuant to the Convention on International Civil Aviation dated 7 December 1944 and the Law on Aviation of the Republic of Azerbaijan in respect of the above-mentioned aircraft which is considered to be airworthy when maintained and operated in accordance with the foregoing and the pertinent operating limitations.<br><br>M.Y. / S.P.<br><br>Səlahiyyətli şəxs (soyadı, adı, atasının adı, vəzifəsi) / Authorised person (surname, name, patronymic, position):<br>İmza / Signature:<br>Verilmə tarixi / Date of issue:</td></tr>
<tr><td colspan="6">6. Qüvvədəndüşmə tarixi / Date of expiry:</td></tr>
</table>

**“Mülki hava gəmilərinə sertifikatların verilməsi, növ dizaynında dəyişiklik və ya onların təmiri, onların uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə tələblərin müəyyən olunması Qaydaları”na**

**2 nömrəli Əlavə**

## İxrac üçün uçuş yararlılıq sertifikatı

| | | |
|---|---|---|
| | Azərbaycan Respublikası / *Republic of Azerbaijan*<br><br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi<br>*Ministry of Digital Development and Transport*<br><br>Dövlət Mülki Aviasiya Agentliyi /<br>*State Civil Aviation Agency*<br><br>İxrac üçün Uçuşa Yararlılıq Sertifikatı / *Certificate of Airworthiness for Export* | Sənədin nömrəsi /<br>*Document number* |

Bu ixrac üçün uçuşa yararlılıq sertifikatı “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıda və [aidiyyəti növ sertifikatının nömrəsi] qeyd olunan, eləcə də bu sertifikatın verilmə tarixində yoxlanılaraq uçuşa yararlı hesab edilən hava gəmisinə verilir. Aşağıdakı istisnalar nəzərə alınmaqla bu hava gəmisi idxal edən dövlətin xüsusi tələblərinə uyğundur. Bu sertifikat satıcı ilə alıcı arasında bağlanmış razılığın və ya müqavilənin uyğunluğunu təsdiq etmir, habelə hava gəmisini istismar etmək səlahiyyətini vermir / *This export certificate of airworthiness is issued pursuant to the Law on Aviation of the Republic of Azerbaijan in respect of the below-mentioned aircraft and detailed [applicable type certificate number] which has been examined and, as of the date of this certificate, is considered airworthy. This aircraft is in compliance with the provided special requirements of the importing State, except as noted below. This certificate does not attest to compliance with any agreements or contracts between the vendor and purchaser, nor does it constitute authority to operate an aircraft.*

| | | |
|---|---|---|
| 1. Milli mənsubiyyət və qeydiyyat nişanları / *Nationality and registration marks:*<br>4K-_____ | 2. İstehsalçı və hava gəmisinin təyinatı / *Manufacturer and manufacturer’s designation of aircraft*: | 3. Hava gəmisinin seriya nömrəsi / *Aircraft serial number* |

| | |
|---|---|
| 4. Mühərrikin modeli / *Engine model*: | 5. Pərin modeli / *Propeller model*: |

6. ☐ Yeni / *New*  ☐ İstismar edilmiş / *Used*

7. İxrac olunan dövlət / *State to which exported*:

8. İstisnalar / *Exceptions*

9. Qeydlər / *Remarks*

M.Y. / *S.P.*

Səlahiyyətli şəxs (soyadı, adı, atasının adı, vəzifəsi) / *Authorised person (surname, name, patronymic, position)*:

İmza / *Signature*:

Verilmə tarixi / *Date of issue:*

**“Mülki hava gəmilərinə sertifikatların verilməsi, növ dizaynında dəyişiklik və ya onların təmiri, onların uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə tələblərin müəyyən olunması Qaydaları”na**

**3 nömrəli Əlavə**

## Xüsusi uçuş icazəsi

<table>
<tr><td></td><td colspan="2">Azərbaycan Respublikası / Republic of Azerbaijan<br><br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi<br>Ministry of Digital Development and Transport<br><br>Dövlət Mülki Aviasiya Agentliyi /<br>State Civil Aviation Agency<br><br>Xüsusi uçuş icazəsi / Special Flight Permit</td><td>Sənədin nömrəsi /<br>Document number</td></tr>
<tr><td colspan="4">Bu xüsusi uçuş icazəsi “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıda qeyd olunan hava gəmisinə verilir / This special flight permit is issued pursuant to the Law on Aviation of the Respublic of Azerbaijan in respect of the below-mentioned aircraft.</td></tr>
<tr><td colspan="2">1. Milli mənsubiyyət və qeydiyyat nişanları / Nationality and registration marks:<br>4K-_____</td><td>2. İstehsalçı və hava gəmisinin təyinatı / Manufacturer and manufacturer’s designation of aircraft:</td><td>3. Hava gəmisinin seriya nömrəsi / Aircraft serial number</td></tr>
<tr><td colspan="4">4. İcazənin əhatə dairəsi / The permit covers:</td></tr>
<tr><td colspan="4">5. İcazə verilir / Holder:</td></tr>
<tr><td colspan="4">6. Şərtlər və məhdudiyyətlər / Conditions and limitations:</td></tr>
<tr><td colspan="4">M.Y. / S.P.<br><br>Səlahiyyətli şəxs (soyadı, adı, atasının adı, vəzifəsi) / Authorised person (surname, name, patronymic, position):<br><br>İmza / Signature:<br><br>Verilmə tarixi / Date of issue:<br><br>Qüvvədəndüşmə tarixi / Date of expiry:</td></tr>
</table>

**“Mülki hava gəmilərinə sertifikatların verilməsi, növ dizaynında dəyişiklik və ya onların təmiri, onların uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə tələblərin müəyyən olunması Qaydaları”na**

**4 nömrəli Əlavə**

## Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat

| | | |
|---|---|---|
| | Azərbaycan Respublikası / *Republic of Azerbaijan*<br><br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi<br>*Ministry of Digital Development and Transport*<br><br>Dövlət Mülki Aviasiya Agentliyi /<br>*State Civil Aviation Agency*<br><br>Səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat / *Noise Certificate* | Sənədin nömrəsi / *Document number* |

| | | |
|---|---|---|
| 1. Milli mənsubiyyət və qeydiyyat nişanı / *Nationality and registration marks:*<br>4K-_____ | 2. İstehsalçı və hava gəmisinin təyinatı / *Manufacturer and manufacturer’s designation of aircraft*: | 3. Hava gəmisinin seriya nömrəsi / *Aircraft serial number* |

| | |
|---|---|
| 4. Mühərrik / *Engine*: | 5. Pər / *Propeller*: |

| | | |
|---|---|---|
| 6. Maksimal qalxma çəkisi / *Maximum take-off mass*: | 7. Maksimal enmə çəkisi / *Maximum landing mass*: | 8. Səs-küy çirklənmələri üzrə sertifikasiya Standartı / *Noise certificaiton Standard*: |

| |
|---|
| 9. Aidiyyəti səs-küy çirklənmələri üzrə sertifikasiya Standartına uyğunluğu təmin etmək məqsədilə yerinə yetirilmiş əlavə modifikasiyalar / *Additional modifications incorporated for the purpose of compliance with the applicable noise certification Standards*: |

| Səs-küy çirklənməsinin səviyyəsi / *Noise level* (EPN dB) | | | | |
|---|---|---|---|---|
| 10. Uçuş enmə zolağından kənarda/tam güclə / Laterral/full-power: | 11. Enməyə giriş / *Approach*: | 12. Üzərindən uçub keçmə / *Flyover*: | 13. Uçub keçmə / *Overflight*: | 14. Qalxma / *Take-off*: |

| |
|---|
| Qeydlər / *Remarks*: |
| 15. Bu səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Kovensiyaya 16 nömrəli Əlavənin 1-ci cildinə uyğun olaraq yuxarıda qeyd olunan, eləcə də texniki xidməti və istismarı müvafiq istismar məhdudiyyətlərinə uyğun həyata keçirildikdə müvafiq səs-küy çirklənmələri üzrə Standarta uyğun hesab edilən hava gəmisinə verilir / *This noise certificate is issued pursuant to Volume I of Annex 16 to the Convention on International Civil Aviation, in respect of the above-mentioned aircraft, which is considered to comply with the indicated noise Standard when maintained and operated in accordance with the relevant requirements and operating limitations.*<br><br>M.Y. / *S.P.*<br><br>Səlahiyyətli şəxs (soyadı, adı, atasının adı, vəzifəsi) / *Authorised person (surname, name, patronymic, position)*:<br><br>İmza / *Signature*:<br><br>Verilmə tarixi / *Date of issue:* |

**“Mülki hava gəmilərinə sertifikatların verilməsi, növ dizaynında dəyişiklik və ya onların təmiri, onların uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə tələblərin müəyyən olunması Qaydaları”na**

**5 nömrəli Əlavə**

## Radioavadanlıq sertifikatı

| | | |
|---|---|---|
| | Azərbaycan Respublikası / *Republic of Azerbaijan*<br><br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi<br>*Ministry of Digital Development and Transport*<br><br>Dövlət Mülki Aviasiya Agentliyi /<br>*State Civil Aviation Agency*<br><br>Radioavadanlıq Sertifikatı / *Radio Equipment Certificate* | Sənədin nömrəsi /<br>*Document number* |

Bu radioavadanlıq sertifikatı “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı hava gəmisinə verilir / *This radio equipment certificate is issued pursuant to the Law on Aviation of the Respublic of Azerbaijan in respect of the below-mentioned aircraft.*

| | | |
|---|---|---|
| 1. Milli mənsubiyyət və qeydiyyat nişanları / *Nationality and registration marks:*<br>4K-_____ | 2. İstehsalçı və hava gəmisinin təyinatı / *Manufacturer and manufacturer’s designation of aircraft*: | 3. Hava gəmisinin seriya nömrəsi / *Aircraft serial number* |
| 4. Çağırış siqnalı / *Call sign*: | | 5. 24-bitlik ünvan / *24 bit address*: |

6. Hava gəmisinin istismarçısı / *Aircraft operator*:

7. Quraşdırılmış radioavadanlıq / *Installed radio equipment*:

| Avadanlığın növü / *Type of Equipment* | Modeli / *Model* | Hissə nömrəsi / *Part number* | Miqdarı / *Quantity* | Tezlik diapazonu / *Frequency Band* |
|---|---|---|---|---|
| | | | | |

8. Qeydlər / *Remarks*:

M.Y. / *S.P.*

Səlahiyyətli şəxs (soyadı, adı, atasının adı, vəzifəsi) / *Authorised person (surname, name, patronymic, position)*:

İmza / *Signature*:

Verilmə tarixi / *Date of issue:*